

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 38 (23.450)

*25 fevral 2020-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirilmişdir






Fevralın 24-də altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət etmiş, abidə önünə tər güllər düzmüşlər.

Sonra sessiya öz işinə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 1-ci bəndinə və "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 dekabr tarixli Sərəncamına uyğun olaraq 2020-ci il fevralın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər keçirilmişdir. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.2-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərin nəticələri haqqında protokollar, həmçinin seçkinin ümumi yekunlarının müəyyənləşdirilməsinə dair Mərkəzi Seçki Komissiyasının 2020-ci il 14 fevral tarixli Qərarı Ali Məhkəməyə təqdim edilmişdir. Seçki sənədləri yoxlanılarkən müəyyən edilmişdir ki, seçici siyahılarına daxil edilmiş 271 min 771 nəfərdən 190 min 669-u, yəni 70,2 faizi seçkidə iştirak etmişdir. Seçki qutularında aşkar edilən bülletenlərdən 187 min 807-si, yəni 98,5 faizi etibarlı hesab edilmişdir. Seçkilərin keçirilməsi və səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı qanun pozuntularına yol verilməmiş, aşkarlıq təmin edilmiş, müxtəlif xarici və yerli, o cümlədən siyasi partiyaların müşahidəçiləri seçkilərin gedişini və səslərin hesablanmasını izləmişlər.

Bildirilmişdir ki, təqdim edilmiş sənədlərin təhlili nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin qanunvericiliyə uyğun olduğu, demokratik, aşkarlıq və hər kəsin öz iradəsini sərbəst ifadə etdiyi şəraitdə keçirildiyi müəyyən edilmişdir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti Konstitusiya icraatı qaydasında işə baxaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci və 93.4-cü maddələrinə uyğun olaraq keçirilmiş seçkilərin nəticələrini 2020-ci il 22 fevral tarixli Qərarı ilə bütövlükdə təsdiq etmişdir.





"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.4-cü maddəsinə uyğun olaraq bu Qərar qətidir. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2020-ci il 9 fevralda keçirilmiş seçkilərdə 45 seçki dairəsi üzrə seçilmiş 45 deputatın səlahiyyətləri təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 2-ci maddəsinə əsasən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədr müavini Əli Qədimov altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçilmiş deputatların siyahısını oxumuşdur.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının ilk iclasına 23 saylı Cəhri Seçki Dairəsindən seçilmiş deputat Hacıfəxrəddin Səfərli sədrlik etmişdir.

9 fevral 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçilmiş 45 deputatın hamısı sessiyada iştirak etdiyindən sessiya öz işinə başlamağa səlahiyyətli hesab edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin seçilməsi məsələsi müzakirə edilmişdir.

18 saylı Nehrəm Seçki Dairəsindən seçilmiş deputat Hüseyn Niftəliyev çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilmək üçün Vasif Yusif oğlu Talıbovun namizədliyini irəli sürərək demişdir: 2020-ci il fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilərin nəticəsi bir daha təsdiq etdi ki, ümummilli liderimiz Heydər Əliyevin yoluna alternativ yoxdur. 1995-ci ildən ötən dövrdə bu yolun davam etdirilməsi Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə uğurların qazanılmasına səbəb olmuş, sənaye, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət inkişaf etdirilmiş, ordu quruculuğu sahəsində tədbirlər görülmüşdür. Həmçinin yerli istehsalın həcmi artmış, yeni istehsal müəssisələri yaradılmış, iş yerləri açılmış, əhalinin məşğulluğu və rifahı yaxşılaşdırılmış, ərzaq, enerji və müdafiə təhlükəsizliyi təmin olunmuşdur. Əvvəllər daxili tələbatı idxal hesabına ödənən Naxçıvan Muxtar Respublikasının bu gün böyük ixrac potensialı vardır. Genişmiqyaslı tikinti-quruculuq işləri şəhər və kəndləri abadlaşdırmış, yeni yollar, körpülər salınmış, məktəblər, xəstəxanalar idman kompleksləri istifadəyə verilmişdir. Vaxt vardı muxtar respublika əhalisi bir tərəfdən erməni işğalı, digər tərəfdən, sözün həqiqi mənasında, aclıq təhlükəsi ilə üz-üzə qalmışdı. Bu gün isə Naxçıvan etibarlı qorunur, müdafiə edilir. İnsanlar rahat və təhlükəsiz yaşayırlar. Məskunlaşma ilbəil artır. Bütün bunlar qədim diyarın turizm potensialının artmasına səbəb olmuş, Naxçıvan şəhəri dünyanın 50 ən təhlükəsiz və səyahət edilən şəhərləri sırasına daxil edilmişdir. Bu gün biz ulu öndərin arzuladığı Naxçıvanda yaşayırıq. Muxtar respublikanın inkişaf və tərəqqi tarixinin şahidləriyik.

Hüseyn Niftəliyev demişdir: "Mən həm seçicilərin və deputat həmkarlarımın, həm də bütün muxtar respublika əhalisinin yekdil fikrini ifadə edərək 7 saylı Aralıq Seçki Dairəsindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmiş Vasif Yusif oğlu Talıbovun yenidən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə namizədliyini irəli sürürəm!"

Deputatlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə irəli sürülmüş namizədin açıq səsvermə yolu ilə seçilməsini təklif etmişlər. Səsvermənin nəticələrini hesablamaq üçün 3 nəfərdən ibarət hesablayıcı komissiya seçilmişdir.

Sonra səsvermə keçirilmişdir.

Hesablayıcı komissiyanın yekun protokoluna əsasən səsvermədə iştirak edən 45 deputatın hamısı 7 saylı Aralıq Seçki Dairəsindən seçilmiş deputat Vasif Yusif oğlu Talıbovun lehinə səs vermişdir. Beləliklə, Vasif Yusif oğlu Talıbov yenidən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sessiyada çıxış etmişdir.

(Ali Məclis Sədrinin çıxışı qəzetin bugünkü nömrəsində dərc olunur).

Sonra sessiya öz işini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sədrliyi ilə davam etdirmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilmişdir:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavinlərinin seçilməsi
2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi
3. Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

Sessiyanın iş qaydası təsdiq olunmuş,

*Ardı 2-ci səhifədə*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavinlərinin seçilməsi məsələsi müzakirə edilmişdir.

10 saylı Şərur Şəhər Seçki Dairəsindən deputat Azər Yadulla oğlu Zeynalov Ali Məclis Sədrinin birinci müavini seçilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov minnətdarlıq edərək göstərilən etimadı doğruldacağını bildirmişdir.

Sonra sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələrinin sədrləri, sədr müavinləri və üzvləri seçilmişdir.

Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsinin icrasının təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini-maliyyə naziri Səbuhi Məmmədov çıxış etmiş, müzakirə olunan məsələ ilə bağlı qanun layihəsi qəbul olunmuşdur.

Ali Məclisin Sədri sessiyaya yekun vuraraq muxtar respublikanın inkişafında, sabitliyin və sərhədlərin qorunmasında əməyi olanların hamısına təşəkkürünü bildirmiş, qarşıdakı dövrdə inkişafın təmin olunmasında sessiya iştirakçılarına, muxtar respublikanın hər bir sakininə uğurlar arzulamışdır.

Bununla da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun

## Ç I X I Ş I

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ötən çağırışdakı fəaliyyəti dövründə ulu öndər Heydər Əliyev siyasi xətti muxtar respublikada inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmiş, ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində mühüm işlər görülmüşdür. Nəzərdə tutulan proqramlar vaxtında icra olunmuş, yeni infrastruktur, istehsal və emal sahələri, sosial-mədəni obyektlər yaradılmış, ordu quruculuğuna diqqət artırılmış, əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görülmüşdür.

Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilər də bir daha təsdiq etdi ki, ulu öndər Heydər Əliyevin siyasi xətti Azərbaycanın inkişaf, sabitlik və rifah yoludur. Seçkilərdə fəallıq göstərən, ulu öndərimizin siyasi kursunu dəstəkləyən bütün seçicilərə minnətdarlığımı bildirirəm!

Muxtar respublika Mərkəzi Seçki Komissiyasına, dairə və məntəqə seçki komissiyalarına, seçkilərin qanunvericiliyin tələbləri səviyyəsində keçirilməsini təmin edən bütün aidiyyəti orqanlara təşəkkür edir, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına muxtar respublika seçicilərinin etimadına layiq görüldüklərinə görə təbriklərimi çatdırıram!

Biz qarşıdakı dövrdə də ulu öndərin yoluna sadiq qalaraq Naxçıvan Muxtar Respublikasının inkişafını təmin etməli, əhalinin yaşayış səviyyəsini daha da yaxşılaşdırmalı, yeni istehsal sahələri və bununla bərabər iş yerləri yaratmalı, sosial sahələrin inkişafına diqqəti artırmalıyıq.

Büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə nəzarət daha da gücləndirilməli, vergi və rüsumların vaxtında ödənilməsi təmin edilməli, etibarlı maliyyə nəzarəti sistemi formalaşdırılmalıdır. Həmçinin muxtar respublika əhalisinin maliyyə resurslarına çıxış imkanları asanlaşdırılmalı, real sektorun inkişafına yönləndirilən kredit növlərinə üstünlük verilməli, verilmiş kreditlərin təyinatı üzrə istifadəsinə və vaxtında qaytarılmasına nəzarət olunmalıdır.

2020-ci ilin muxtar respublikada "İxrac ili" elan edilməsi qarşıya mühüm vəzifələr qoyur. Ona görə də iqtisadi inkişafın prioritet istiqaməti kimi muxtar respublikanın xarici ölkələrlə qarşılıqlı ticarət əlaqələri daha da genişləndirilməli, xüsusilə də idxalın həcminin azaldılması və ixrac potensialının gücləndirilməsi istiqamətində əsaslı işlər görülməlidir. Mövcud istehsal sahələrinin genişləndirilməsi və ixracyönümlü istehsal müəssisələrinin yaradılması davam etdirilməli, süni qiymət artımının qarşısı alınmalıdır.

Hər bir ölkədə inkişafın əsas hədəfi ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Muxtar respublikada aqrar sahədə görülən işlər, həyata keçirilən islahatlar da bu məqsədə hesablanmışdır. Qarşıdakı dövrdə də bu sahədəki fəaliyyət davam etdirilməli, məhsuldarlığın artırılması sahəsində elmi-təcrübi tədbirlər görülməlidir. Əkinəyararlı torpaqlardan təyinatına uyğun istifadə olunmalı, mütərəqqi suvarma şəbəkələri qurulmalı, suvarma suyunun düzgün bölgüsünə və səmərəli istifadəsinə nəzarət gücləndirilməli, tələbata uyğun yeni kənd təsərrüfatı texnikaları və mineral gübrələri alınıb gətirilməlidir.

Muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi uğurlu nəticələrin qazanılmasına və əhalinin məşğulluğunun təmin olunmasına, ən əsası isə istehsal olunan məhsulların keyfiyyətinin və çeşidinin artırılmasına səbəb olmuşdur. Ona görə də qarşıdakı dövrdə də ailə təsərrüfatlarının fəaliyyətinə mühüm əhəmiyyət verilməli, istehsal olunmuş məhsulların satışına və ixracına köməklik göstərilməlidir.

Muxtar respublikada sığorta işi də təkmilləşdirilməli, aqrar sığorta bazarının formalaşmasına və inkişafına köməklik göstərilməli, Aqrar Sığorta Fondunun fəaliyyəti gücləndirilməlidir. Sosial-iqtisadi inkişafı əks etdirən hesabatlar təhlilli və müqayisəli işlənməli, mətbuatda işıqlandırılmalıdır.

Təbiətin mühafizəsi, ekologiyanın qorunması və yaşıllıqların artırılması ümumxalq işidir. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublika ərazisinin 20 faizə yaxını yaşıllıqlardan ibarətdir. Ona görə də yaşıllıqların və meşə fondlarının mühafizəsinə diqqət artırılmalı, ekoloji tarazlığın qorunması ilə bağlı monitorinqlər davam etdirilməlidir. Həmçinin muxtar respublikada müxtəlif növ ağac, gül və bəzək bitkilərinə olan tələbat öyrənilməli, "İqlim otağı"nın və tingçilik təsərrüfatlarının imkanlarından geniş istifadə edilməli, tələbat yerli istehsal hesabına ödənilməlidir.

Qida təhlükəsizliyinin təmin olunmasında baytarlıq təbabəti xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən də epizootik vəziyyəti nəzarətdə saxlamalı, mal-qara və quşlar arasında xəstəliklərə qarşı peyvəndləmə tədbirləri vaxtında aparılmalı, Dövlət Proqramının icrasına diqqət artırılmalıdır.

Muxtar respublikada tikinti və abadlaşdırma işlərinin həcmi ilbəil artır. Həyata keçirilən tikinti işlərinin keyfiyyətinə nəzarət edilməli, ayrılmış vəsaitdən səmərəli və düzgün istifadə olunmalı, tikinti obyektləri mühəndis-texniki tələblərə uyğun layihələndirilməlidir.

Bu gün muxtar respublikanın ümumi inkişafını xarakterizə edərkən enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər xüsusi qeyd olunmalıdır. Gələcəkdə alternativ və bərpaolunan enerji mənbələrindən istifadə diqqətdə saxlanılmalı, istehlakçılar dayanıqlı elektrik enerjisi ilə təmin olunmalı, qarşıdakı dövrdə tələbat tamamilə bərpaolunan enerji mənbələri hesabına ödənilməlidir.

Muxtar respublikada qurulan müasir yollar iqtisadiyyatın şaxələndirilməsinə, yaşayış məntəqələrinin və turizmin inkişafına töhfə verir. Bundan sonra da muxtar respublikada yol tikintisinə geniş yer verilməli, keyfiyyət amilinə xüsusi diqqət yetirilməli, sərnişindaşıma işinə və nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət olunmalıdır. Eyni zamanda yeni texnologiyaların tətbiqi sahəsində fəaliyyət təkmilləşdirilməli, göstərilən xidmətlərin keyfiyyəti yüksəldilməlidir.

Yerlərdə işə tələbkarlıq artırılmalı, nizam-intizama əməl edilməli, vətəndaşlarla iş gücləndirilməli, ailə təsərrüfatlarının inkişafına dəstək verilməlidir. Torpaqların qanunsuz zəbt olunmasının və təyinatdankənar istifadəsinin qarşısının alınması üçün zəruri tədbirlər görülməlidir.

Bundan sonra da muxtar respublikada elm və təhsilin inkişafı əsas istiqamət kimi götürüləcəkdir. Bütün təhsil pillələri üzrə infrastrukturun müasirləşdirilməsi və yaradılan şəraitdən səmərəli istifadə, innovasiyaların tətbiqi və ixtisaslı kadr hazırlığı diqqətdə saxlanmalı, elmin istehsalatda tətbiqinə nail olunmalı, tədqiqatların əhatə dairəsi genişləndirilməli, Naxçıvan elmi mühitinin beynəlxalq aləmə inteqrasiyası sürətləndirilməlidir.

Muxtar respublikada müasir səhiyyə infrastrukturunun yaradılması insan amilinə verilən dəyərin ifadəsidir. Xüsusilə icbari tibbi sığortanın tətbiqi səhiyyə xidmətlərinin keyfiyyətini daha da yaxşılaşdırmışdır. Bu sahədə qarşıya qoyulan vəzifələrin icrası qısa müddətdə başa çatdırılmalı, səhiyyə maarifinə xüsusi diqqət yetirilməli, həkim və tibb işçilərinin peşəkarlığı artırılmalı, bütün yaş qruplarından olan əhali keyfiyyətli tibbi xidmətlə təmin olunmalıdır.

Mədəniyyətin inkişafını təmin etmədən, tarixi-mədəni irsə sahib çıxmadan ümumi inkişafdan danışmaq mümkün deyil. Qarşıdakı illərdə də muxtar respublikada tarixi-mədəni irsimizin, adət-ənənələrimizin, milli dəyərlərimizin qorunması və təbliğinə yönəlmiş tədbirlər davam etdirilməli, muzey və kitabxana işi müasir tələblərə uyğun qurulmalı, uşaq-musiqi məktəblərində dərslərin keyfiyyəti artırılmalıdır.

Gənclərin fiziki cəhətdən sağlam böyüməsində və asudə vaxtlarının səmərəli təşkilində bədən tərbiyəsi və idman əsas vasitə kimi götürülməlidir. Bu səbəbdən də idmanın inkişafı sahəsində qarşıya qoyulan vəzifələr və qəbul olunmuş Dövlət Proqramı uğurla icra olunmalı, dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində fəaliyyət gücləndirilməlidir.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və məşğulluğunun təmin olunması sahəsində işlər də davam etdirilməli, peşə hazırlığı əmək bazarının tələblərinə uyğunlaşdırılmalıdır. Pensiya təyinatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada aparılmalı, elektron xidmətlərin əhatə dairəsi genişləndirilməlidir.

Müasir dövrdə turizm iqtisadi inkişafın vacib sahəsi kimi götürülür. Ona görə də muxtar respublikanın mövcud turizm imkanlarının tanıdılması və bu sahədə yaradılan şəraitdən səmərəli istifadə ilə bağlı tədbirlər görülməli, ölkə və xarici turizm şirkətləri ilə əlaqələr gücləndirilməli, turist cəlbi sahəsində mütərəqqi layihələr həyata keçirilməlidir.

İnformasiya-məlumatlandırma, maarifçilik işi, tanıtım və təbliğat bundan sonra da kütləvi informasiya vasitələrinin əsas fəaliyyət istiqamətinə çevrilməli, internet media resurslarında və sosial şəbəkələrdə Naxçıvanla bağlı məlumatların yayılmasına diqqət artırılmalı, milli dəyərlərimiz, tarixi-mədəni irsimiz və muxtar respublikanın müasir inkişafı ilə bağlı teleradio və qəzet materialları hazırlanmalı, teleradioların yayımlarının keyfiyyəti yaxşılaşdırılmalı və əhatə dairəsi genişləndirilməlidir.

Sabitlik təmin olunmadan, asayiş qorunmadan davamlı inkişafdan danışmaq da mümkün deyil. Muxtar respublikada əldə olunan ən mühüm nailiyyətlərdən biri də ictimai-siyasi sabitliyin təmin olunması, cinayət hadisələrinin sayının kəskin azalmasıdır. Bu sahədəki fəaliyyət davam etdirilməli, cinayətkarlıqla mübarizə tədbirləri gücləndirilməli, nizam-intizam daha da möhkəmləndirilməli, maarifləndirmə ön planda saxlanmalıdır. Məhkəmə qərarlarının vaxtında icrasına diqqət yetirilməli, bələdiyyələrin fəaliyyətinə nəzarət düzgün təşkil olunmalıdır.

Muxtar respublikada ordu quruculuğu və müdafiə təhlükəsizliyinin möhkəmləndirilməsi sahəsində görülən işlər bundan sonra da diqqət mərkəzində saxlanılacaqdır. Qarşılıqlı fəaliyyət planına uyğun olaraq təlimlər keçirilməli, döyüş hazırlığı və şəxsi heyətin peşəkarlığı artırılmalı, hərbi hissələrdə quruculuq işləri aparılmalı, hərbi qulluqçuların xidmət, yaşayış və sosial məişət şəraiti yaxşılaşdırılmalıdır.

Hörmətli sessiya iştirakçıları!

Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının əsasında Heydər Əliyev siyasi xətti dayanır. Dahi rəhbərin yoluna sədaqət qarşıda dayanan vəzifələrin uğurlu icrasını təmin edəcəkdir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik".***

Sağ olun!

## V.Y.Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vasif Yusif oğlu Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilsin.

**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasına sədrlik edən Hacıfəxrəddin Səfərli**

*Naxçıvan şəhəri, 24 fevral 2020-ci il*

## A.Y.Zeynalovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini seçilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Deputat Azər Yadulla oğlu Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini seçilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 fevral 2020-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələri sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aşağıdakı deputatları müvafiq komitələrin sədrləri, sədr müavinləri və üzvləri seçilsinlər:

**I. Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsi**

1. Səfərli Hacıfəxrəddin Yəhya oğlu - sədr
2. Babayev Əmir Baxşəli oğlu - müavin
3. Cəfərli Elman Yusif oğlu - üzv
4. İbrahimov Qadir Abbas oğlu - üzv
5. Niftəliyev Hüseyn Əsrafil oğlu - üzv
6. Məmmədli Turan Bəyməmməd qızı - üzv
7. Allahverdiyeva Aidə Məhərrəm qızı - üzv

**II. İqtisadi siyasət komitəsi**

1. Zeynalov Azər Yadulla oğlu - sədr
2. Məmmədov Nazim Məmməd oğlu - müavin
3. Möhbəliyev Telman Əli oğlu - üzv
4. Məmmədov İsa Mustafa oğlu - üzv
5. Qasımov Arif Mikayıl oğlu -üzv
6. Abbasov Vüqar Zakir oğlu -üzv
7. Quluyeva Sevda Rüstəm qızı -üzv
8. Vəliyev Musa Məmməd oğlu -üzv

**III. Aqrar siyasət, təbii ehtiyatlar, energetika və ekologiya məsələləri komitəsi**

1. İsayev İsa Bünyad oğlu - sədr
2. Bababəyli Nazim Səfərəli oğlu - müavin
3. Hacıyev Emin Davud oğlu - üzv
4. Bağırsoylu Hüseyn Qədrulla oğlu - üzv
5. Əliyeva Vüsalə Abazər qızı - üzv
6. Fərəcov Fərəc Rza oğlu - üzv
7. Cəfərli Əhəd Məmməd oğlu - üzv

**IV. Sosial siyasət, elm, təhsil, idman və mədəniyyət məsələləri komitəsi**

1. Həşimli Hüseyn Məmməd oğlu - sədr
2. Vəliyeva Günel Fəxrəddin qızı - müavin
3. Həsənova Turan Vaqif qızı - üzv
4. Həsənova Esmira Həsən qızı - üzv
5. İbadov Telman Əsəd oğlu - üzv
6. İsmayılov Cəbi Əziz oğlu - üzv
7. Cəlilzadə Aidə Məhəmməd qızı - üzv
8. Allahverdiyeva Həbibə Rəşad qızı - üzv

**V. Yerli özünüidarə komitəsi**

1. Babayev Tofiq Süleyman oğlu - sədr
2. İsmayılov Ehtibar Şəhrud oğlu - müavin
3. Zeynalov Eldar Əhəd oğlu - üzv
4. Məmmədov Rizvan Təmo oğlu - üzv
5. Əliyev Asim Yediyar oğlu - üzv
6. Bağırov Zəbur David oğlu - üzv
7. Məmmədov Ehtimad Cəfər oğlu - üzv

**VI. İnsan hüquqları, beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi**

1. İbrahimov Anar Adil oğlu - sədr
2. Rzayeva Yazgül Həsənəli qızı - müavin
3. Məmmədova Yeganə Qurban qızı - üzv
4. Talıbov Seymur Vasif oğlu - üzv
5. Əzimov Behruz Nurəddin oğlu - üzv
6. Qəribli İsmayıl Cavanşir oğlu - üzv
7. Həsənov Nüsrət Firudin oğlu - üzv

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 fevral 2020-ci il*

## Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında

## Naxçıvan Muxtar Respublikasının

## Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası gəlirlər üzrə 96 024 248 manat, xərclər üzrə 396 531 513 manat məbləğində olmaqla təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 fevral 2020-ci il*

# Naxçıvan:

## düzgün seçilmiş yolun uğurları



*Yaradılmasının 96 ili tamam olan doğma muxtar respublikamız bu gün özünün intibah və çiçəklənmə dövrünü yaşayır. Möhtəşəm şəkildə yenidən qurulan, gözəlləşən, gözlərimizin önündə günü-gündən dəyişən qədim Naxçıvan Şərqdə yeni doğulmuş Günəş timsalındadır. O Günəşin şəfəqləri hər bir naxçıvanlının yoluna işıq salır, hər birimizi qurmağa, yaratmağa sövq edir, nail olduğumuz inkişafa öz töhfəmizi verməyə ruhlandırır. Bu yolla böyük inam və qətiyyətlə addımlayan diyarımızda inkişafın təməli böyük öndər Heydər Əliyevlə başlayıb. O yol bütün naxçıvanlıları xoşbəxtliyə, işıqlı sabahlara qovuşdurub. Burada böyük rus yazıçısı L.Tolstoyun sözlərini xatırlayıram: "Xoşbəxt olmaq üçün xoşbəxtliyin mümkün olduğuna inanmaq lazımdır". Məhz biz naxçıvanlılar da XX əsrin son qərinəsində öz xoşbəxtliyimizi, nicatımızı Heydər Əliyevlə tapacağımıza inandıq, ona güvəndik və bu günümüz üçün dahi şəxsiyyətə borcluyuq. Borcluyuq ki, bu gündən sabaha inamı sönmüş Naxçıvan dahi rəhbərin uzaqgörən siyasəti, idarəetmə bacarığı, şəxsi nüfuzu ilə yurdumuzu labüd bəlalardan, bizi isə həmin bəlaların caynağından qurtardı. Borcluyuq ki, bizə yeni Naxçıvan qurdu. Borcluyuq ki, onun qurduğu Naxçıvan bu gün məhz ulu öndərin yolu ilə gedir. Borcluyuq ki, o yolu bundan sonra da uğurla davam etdirək, bizdən sonrakı nəsil də o yolun yolçuları olsun.*

Bugünkü Naxçıvan modelini ölkəmizin digər yerlərindən, xarici ölkələrdən gələn qonaqlar da görür, təəccüblərini gizlətmirlər. Görürlər ki, blokada şəraitində olsa da, 96 illik muxtariyyət yolu keçmiş Naxçıvan yaşayır, sürətlə inkişaf edir. Diyarımızın hər bir şəhəri, qəsəbəsi, kəndi yenidən qurulur, böyük və hərtərəfli tərəqqi işığında uğurla gələcəyə addımlayır. Bu inkişaf bir addımlığımızda yaşayan nankor ermənilərə gözdağıdır və həmişə də belə olacaq.

Muxtar respublikada həyatın ayrılmaz ritminə çevrilən quruculuq tədbirləri, iqtisadi və sosial sahədəki irəliləyişlər adilikdən uzaq, möcüzənin reallığa çevrildiyi həqiqətdir. Naxçıvanın son illərini vaxtilə çiçəklənmə dövrü kimi tanınan, sivilizasiyanın yüksək zirvəsinə çatmış Atabəylər dövrünün Naxçıvanı ilə də müqayisə etmək olar. Beş min ildən artıq şəhərsalma mədəniyyətinə malik olan bu diyar bu gün özünün gənclik və xoşbəxtlik çağını ona görə yaşayır ki, bu məkanda ulu öndər Heydər Əliyevin yolu uğurla davam etdirilir. Sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar ona görə qazanılır ki, Heydər Əliyev yolunun xoşbəxt sabahlara gedən həyat gəmisinin sükanı etibarlı əllərdədir. Ötən illərdə qazanılan hər bir uğurun kökündə məhz Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, düzgün idarəetmə dayanır. İnkişaf bu dahi şəxsiyyətin xalqın tələbi ilə siyasi hakimiyyətə ikinci qayıdışından sonra ölkəmizin hər bir guşəsində gedən quruculuğun, mənəvi-siyasi, iqtisadi intibahın, Azərbaycanı Azərbaycana qaytarmaq xəttinin tərkib hissəsi, Naxçıvan Muxtar Respublikasının timsalında konkret əyani ifadəsidir. Bu, danılmaz həqiqətdir. Həmin həqiqətin fövqündə isə yenidənqurmadan yeniləşməyə qədəm qoyan Naxçıvan görünür: rahat, abad yolları, gözoxşayan küçələri, binaları, bağları, parkları ilə, eyni zamanda ötən minilliklərdən xəbər verən memarlıq inciləri ilə, qızılgüllər gülüstanına dönən seyrəngahları, bağçaları ilə yeniləşən qədim, ulu, bu gün isə gənc, cavan və müasir Naxçıvan...

Artıq muxtar respublikada elə bir sahə yoxdur ki, diqqətdən kənarda qalsın, inkişafa nail olunmasın. Sürətlə gözəlləşən Naxçıvanın simasını dəyişdirən təkcə abad küçələr, rahat yollar, yaraşıqlı parklar, binalar deyil. Aparılan uğurlu siyasət sayəsində adamların dünyagörüşü, həyata baxışları da dəyişib. Ürəklə, həvəslə görülən işlərin könülaçan fərəhli nəticələri isə göz qabağındadır. Doğma yurda sonsuz məhəbbətin ifadəsi hər addımda hiss olunur. Bu isə hər birimizin qəlbini dağa döndərir. Azərbaycanın ən qədim yurd yerlərindən biri, hər daşında, qayasında minilliklərin izini yaşadan, bəşər sivilizasiyasının ilkin məskənlərindən sayılan Naxçıvanın simvoluna çevrilən tarixi-memarlıq nümunələri qorunub saxlanılır, yeni tikintilər isə elə inşa olunur ki, tarixlə vəhdət yaranır. Naxçıvanlılar isə bütün bu proseslərdə fəal iştirak etməyi artıq vətəndaşlıq borcuna çeviriblər.

Ümummilli liderimiz Heydər Əliyev doğma Azərbaycanımız, Naxçıvan haqqında deyirdi: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*** Böyük fəxrlə, qürur hissi ilə deyə bilərik ki, dahi rəhbərin bu diyarla bağlı arzu və istəkləri QURUCU Rəhbərin böyük diqqət və qayğısı ilə naxçıvanlılar tərəfindən sonsuz məhəbbətlə həyata keçirilərək yeni müstəviyə qədəm qoyub. Belə ki, iqtisadi və sosial sahələrdə baş verən dəyişiklikləri xarakterizə edən makroiqtisadi göstəricilər yüksələn xətlə davam etdirilməkdə, istehsal sahələrində məhsul istehsalı artmaqda, müxtəlif sahələrdə göstərilən xidmətlərin səviyyəsi günbəgün yüksəlməkdədir.

Bütün bunlar onu göstərir ki, naxçıvanlılar ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan sabitliyə və quruculuq işlərinə öz layiqli töhfəsini verməyə, nailiyyətləri daha da artırmağa çalışırlar. Bunun ifadəsidir ki, muxtar respublika özünün iqtisadi, sosial inkişaf sürətinə görə ölkənin regionları arasında lider mövqeyə yüksəlib. Nəyin sayəsində? Əlbəttə ki, gələcəyə istiqamətlənmiş inkişaf proqramlarının qəbul edilib qısa müddətdə və yüksək səviyyədə həyata keçirilməsi, ən müasir texnologiyaların tətbiqi, sahibkarlığın inkişafına dəstək verilməsi və digər amillər hesabına.

Bu gün qürurla söyləmək olar ki, paytaxt Naxçıvan şəhərində olduğu kimi, rayon mərkəzlərində, ən ucqar dağ və sərhəd kəndlərində belə, nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaradıb. Naxçıvanda inkişaf həm də kompleks abadlaşaraq müasirləşən yeni kənd modellərinin timsalında özünü göstərir. Kəndlər başdan-başa dəyişir, geniş quruculuq və abadlıq işlərinin aparıldığı, yeni pilot layihələrin tətbiq olunduğu ünvanlara çevrilir. Təhsil, mədəniyyət, səhiyyə, rabitə sahələri üçün onlarla yeni binanın inşa olunması, onların maddi-texniki bazalarının gücləndirilməsi həmin yaşayış məntəqələrinin hər birini müasir Azərbaycan kəndinə çevirib. Bunların hamısı isə insan amilinə, onun layiq olduğu şəkildə yaşamaq hüququna hesablanmış addımlardır. Mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsi, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması, məşğulluğun, xüsusilə də gənclərin faydalı əmək məşğulluğunun artırılması və ümumilikdə, muxtar respublika iqtisadiyyatının güclü inkişafına nail olunması da xüsusi vurğulanmalıdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər artıq dinamik xarakter alaraq prioritet vəzifəyə çevrilib.

Bu inkişaf prosesində elm, təhsil, səhiyyə və mədəniyyətin xüsusi yeri və payı var. Fikrimizcə, bu sahələrdə ciddi islahatlar aparıb yeniləşməyə nail olmadan əsl intibah səviyyəsinə çatmaq mümkün deyildir. Müasir dünyamızda elm və təhsil yeniləşmənin əsas hərəkətverici qüvvəsi kimi qəbul olunur. Ona görə də muxtar respublikada bu istiqamətdə dövlət səviyyəsində aparılan siyasət ardıcıl və məqsədyönlü proqram şəklində həyata keçirilir. Naxçıvanın qədimliyi, minilliklərə dayanan yaşı, milli-tarixi ənənələri, ulu tariximizdən soraq verən toponimləri, arxeoloji abidələri, qayaüstü rəsmləri əsaslı şəkildə tədqiq edilir, abidələri bərpa olunur. Çünki o qiymətli abidələr bu qədim yurd yerinin şərəf tarixidir, daşlaşmış pasportudur. Dünənimizlə bu günümüz arasında körpüdür, ulu babalarımızın yadigarlarıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri öz çıxışlarında dəfələrlə vurğalayıb ki, dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır. Məhz bu prinsip üstün tutulmaqla əhalinin sağlamlığının qorunması, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası səhiyyə sahəsində reallaşdırılan mühüm islahatlardandır. İcbari tibbi sığortanın tətbiqi isə göstərilən dövlət qayğısının növbəti təzahürüdür.

Muxtar respublikamızın keçdiyi yolu xarakterizə etmək, inkişaf dinamikasını görmək üçün real həyata baxmaq kifayətdir. Bu uğurların, bu nailiyyətlərin qədrini bilməliyik. Çünki bunlar müstəqillik dövründə, eyni zamanda blokada şəraitində qazanılıb. Ona görə də nailiyyətlərimizi daha da artırmalı, dövlət müstəqilliyimizi daha da möhkəmləndirməli, ümummilli liderimizin yolunu davam etdirərək muxtar respublikamızın quruculuq salnaməsini layiqli nümunələrlə zənginləşdirməliyik.

Ölkə başçısı cənab İlham Əliyevin Naxçıvana səfərləri zamanı muxtar respublikamızın inkişafını yüksək qiymətləndirərək dediyi kimi: ***"Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir".***

*Bu gün naxçıvanlılar düzgün seçilmiş yoldadırlar və hər birimiz o yolun günbəgün bizi daha xoş sabahlara apardığını görür, bu yolun əbədi olacağına inanırıq.*

**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

Xalq təqvimi

# İlk çərşənbə: Ömrünüz su kimi uzun, ruziniz bol-bərəkətli olsun

***Xalq təqvimində "Böyük çillə", "Kiçik çillə", "Boz ay" adları ilə üç dövrə bölünən qış qədim təsəvvürlərdə təbiətin "ölməsi" kimi də xarakterizə olunur. Novruza doğru istiqamət alan Boz ay dönəmində "ölən təbiət" yenidən dirilir. İlin sonuncu çərşənbələrinin cəmləşdiyi Boz ay xalq arasında "ağlar-gülər ay" da adlanır. Dünyanın yaranmasında iştirak edən su, torpaq, yel, od mifizmi xalq təfəkküründə dərin iz salaraq ilaxır çərşənbələrin də xüsusiləşməsini şərtləndirir.***



Novruz mərasimi öncəsi çərşənbələr onlarla bağlı ritual və mərasimlərdən ibarətdir. Çərşənbələrin Novruz bayramının özəlliklərini daşıyaraq bəzi təsəvvürlərlə bağlı olduğu məlumdur. İlaxır çərşənbələrlə bağlı fikirlər müxtəlif mifoloji düşüncələrdən qaynaqlanır və su, torpaq, yel və od mifizmi ilə əlaqədardır.

Su dünyanın ilkin yaradılış stixiyasıdır. Su həm də dünya mifoloji düşüncəsində yaradıcı başlanğıcdır. Elə mifoloji düşüncələrə əsaslanaraq demək olar ki, su möcüzəsi dünyanın yaranmasında yaradanın həmkarı kimi iştirak edir. Su struktursuzdur, hara gəldi axır, göydən yağır, yerdən çıxır, beləliklə də, geniş məkanı tutur. Buna görə də əski düşüncə onu ilkin yaradılış çağı, xaosun bir stixiyası kimi təsəvvür etmişdir.

Azərbaycan folklorunda, o cümlədən nağıllarında da su ilə bağlı inanclara və onları təmsil edən obrazlara tez-tez rast gəlinir. Su həyat, sevgi nişanəsidir. Elə nağıllarımızda da qeyri-adi qəhrəmanların yaranışında su mühüm yer tutur. Su övlad bəxş edir. Qocalıq çağlarını keçirən insanlara suyun övlad verməsi Azərbaycan nağıllarında öz əksini tapmışdır. Öz kökləri ilə mifoloji düşüncənin hökm sürdüyü çağlara gedib çıxan belə nağıllar maraqlı süjet xətti ilə seçilir. Həmin nağılların kompazisiyasında övladsız ata-ananın arzusu, qəhrəmanın qeyri-adi, möcüzəli dünyaya gəlməsi motivi mühüm yer tutur. Bu cəhət Azərbaycan nağıllarından "Kəl Həsənin nağılı"nda da əks olunub. Nağılda təsvir edilir ki, uşaq arzusu ilə yaşayan ər-arvad artıq qocalıq yaşlarına gəlib çatıblar. Bir təsadüf onların həyatının axarını dəyişir. Nisə əri xəstələndiyi üçün meşəyə odun dalınca gedir. O, meşədə bərk acır, bir neçə armud dərib yeyir və bundan sonra çox susuzladığını hiss edir. Nisə bulaqdan doyunca su içir. Bundan sonra gözəl bir quşun da yumurtasını "başına çəkir". Bu hadisədən bir müddət sonra Nisə qeyri-adi keyfiyyətləri ilə seçilən bir oğlan dünyaya gətirir. Bu oğlan – Kəl Həsən adi insanların bacara bilmədiyi ən çətin sınaqlardan çıxır, heç kimin məğlub edə bilmədiyi Kəşkaş pəhlavanı öldürərək gözəl Pəri xanımı onun əlindən xilas edir.

Suyun övlad bəxş etməsi, suya inam "Reyhanın nağılı"nda da aydın şəkildə özünü qoruyub saxlamışdır. Hər iki nağıl motivi öz kökləri ilə mifoloji inancların hökm sürdüyü zamanla səsləşir. Həmin nağıllarda ananın tez-tez su içməsi və bunun nəticəsində övlada sahib olması, öz arzusuna çatması su inamı ilə sıx şəkildə bağlılıqdan doğmuşdur.

Özünün çoxsaylı araşdırmalarında su ünsürünün türk mifologiyasında oynadığı rola xüsusi diqqət yetirən professor Mirəli Seyidov yazır: "Suya və bitkiyə (ağaca) inam türk xalqlarının əski inamlar aləmi ilə bağlıdır. Su da, ağac da (dünya ağacı) ilkindir. İnsan və həyat onlardan yaranmışdır. Su və dünya ağacı insanlara can, ruh verir. Bu mifoloji baxış ibtidai insanın həyat tərzindən, yaşayışından, dünyanı dərk etməsindən yaranmışdır. Əski insan üçün su və ağac (bitki) onun həyatı, yaşayışı üçün əsas idi. Buna görə də onlar bir çox xalqlarda mifikləşmişdir. Bu səbəbdən də insan suda, bitkidə əbədilik, ölməzlik axtarmışdır".

Əvvəldə söylədiyimiz kimi, dünyanın yaranmasında ilkin başlanğıc hesab edilən su ilə bağlı düşüncələr mövsüm mərasimlərinə də öz təsirini göstərmişdir. Qışı çillələrə bölən etnos Boz ayı çərşənbələrə ayırır və bunları ilin sonuncu, axırıncı çərşənbəsi adlandırır. Və bu çərşənbələrin birincisi ilkin yaradılış başlanğıcı olan suyun adı ilə bağlanır. Elə həmin zamanlardan "Su çərşənbəsi" adlanan ilk ilaxır çərşənbə xalq arasında Novruzun ilk başlanğıcı hesab edilir.

Su çərşənbəsi xalq arasında "sular Novruzu", "sular bayramı", "gözəl çərşənbə" adları ilə də tanınmaqdadır. Bu çərşənbədə Azərbaycanın müxtəlif regionlarında, o cümlədən muxtar respublikamızda su ilə bağlı bir çox ayinlər icra olunur. Naxçıvanda su çərşənbəsinin bəzi ayinlərinin icrası mütləq sayılar. Bunların icrası bir çox mifoloji inamların əsasını təşkil edir. Xoşagəlməz yuxuların suya danışılması, su ilə qorxunun bədəndən çıxarılması, paltarların, ev-eşiyə təzə su çilənməsi qədim türklərin suya tapınma inamı ilə əlaqəlidir. Bunu xalq yaradıcılığı örnəkləri içərisində yaranmış arxaik janr nümunələri sübut edir: "Yuxuda su görmək aydınlıqdır", "Səfərə çıxan insanın arxasınca su atarlar", "Lal axan sudan keçməzlər", "Suyun lal axanı, adamın yerə baxanı", "Su səhəngi suda sınar", "Su bir yerdə qalanda iylənər" və sair kimi nümunələrdə suyun əski türk aləmində müqəddəs bilinən anlayışlar sırasında olduğu sübut edilir. Ümumən, Azərbaycan, o cümlədən muxtar respublika ərazisinin folklor yaddaşında su çərşənbəsi ilə əlaqəli inanc və sınama nümunələri də diqqətçəkəndir:

– İlk çərşənbədən başlayaraq qonşuya axşamçağı ələk, maya, kibrit verilməz. Zərurət olduqda diləyə gələn qadındırsa, başından örpəyini, kişidirsə, papağını götürüb istədiyini verərlər.

– Su çərşənbəsində övlad həsrətində olan qadının başına "su qırxlamaq" ayini icra olunur. Bu ayindən sonra həmin qadının övladı olacağına inam yaranır.

– Canında qorxuluğu olan, qorxan insanın başına su çərşənbəsində su qırxlamaq məqbul sayılır.

– Su çərşənbəsində qadınların sevərək icra etdikləri ayinlərdən biri də axar su üzərinə getməkdir. Səhər tezdən axar su üzərinə gedən insan danışıb-dinmədən, qəlbində arzu tutaraq həmin sudan içərsə, arzuları çin olar.

– Su çərşənbəsində axar su üzərindən tullanmaq, keçmək də məqbul sayılar.

Bu ayinlər hazırda Azərbaycanın müxtəlif regionlarında, o cümlədən qədim diyarımızda ənənəvi şəkildə icra olunmaqdadır. Su çərşənbəsinin saf qədəmi uğurlu olsun! Elə bu məqamda Dədəmiz Qorqudun su kimi duru alqışı da yada düşür: "Qamən axan görglü suyunuz qurumasın!"

Biz də ömrünüzün su kimi uzun, ruzinizin bol-bərəkətli olması diləyilə ilk çərşənbənizi təbrik edir, uğurlu-sayalı olsun, – deyirik.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru, AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

# "Yaradıcı Gənclər Akademiyası"na start verilib

*Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Yaradıcı Gənclər Akademiyası"nın başlanması ilə əlaqədar tədbir keçirilib.*



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Ayaz Cabbarov və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Murad Babayev kurslarda iştirak etmək istəyən gənclərə layihə və kursların keçiriləcəyi günlər haqqında ətraflı məlumat verib, onları kursları tədris edən müəllimlərlə tanış ediblər.

Sonra gənclər robotexnika, memarlıq-dizayn, ebru sənəti, qum sənəti, ağac üzərində yandırma, rəssamlıq və dulusçuluq sahələri üzrə kurs keçiləcək otaqlarla tanış olublar. Qeyd edək ki, təlim kurslarına qoşulmaq istəyən gənclər Gənclər və İdman Nazirliyinin www.naxgin.az saytında yerləşdirilmiş bölmədə qeydiyyatdan keçərək layihədə iştirak etmək hüququ qazanıblar. Belə ki, ümumi olaraq 7 yaradıcılıq sahəsi üzrə 25 nəfəri iştirak etmək üçün qeydiyyatdan keçib. Kurslar həftənin 2 günü təşkil olunmaqla fevralın 21-dən iyunun 30-dək davam edəcək. Kursu uğurla başa vuran iştirakçıya sertifikat veriləcək və yekunda gənclərin layihə çərçivəsində hazırladıqları əl işlərindən ibarət sərgi təşkil olunacaqdır.

Layihə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Dövlət Tarix Muzeyi 89 eksponatla zənginləşdirilib

*Qədim tariximizi, mədəniyyətimizi əks etdirən xalçalar, toxuculuq alətləri, milli geyim, mis, saxsı qablar və digər maddi mədəniyyət nümunələrindən ibarət 89 eksponat dünən Naxçıvan Dövlət Tarix Muzeyinə təqdim edilib.*

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova bildirib ki, muxtar respublikada muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzey əməkdaşları və muxtar respublika vətəndaşları yaxından iştirak edirlər. Məhz belə vətəndaşlıq mövqeyinin nəticəsidir ki, ötən il muzeylərimizə 2 min 348, bu ilin yanvar ayında isə 238 eksponat daxil olub. 2019-cu ildə 15, bu ilin ilk iki ayı ərzində isə 3 eksponat təqdimatı keçirilib. Bu gün keçirilən təqdimat mərasimində də xalqımızın həyat tərzini, məişətini özündə yaşadan maddi mədəniyyət nümunələri – xalça məmulatları, tariximizin müxtəlif dövrlərinə aid dekorativ-tətbiqi sənət və milli geyim nümunələri, eləcə də məişətdə istifadə edilən mis qablar Babək rayonu, Nehrəm kənd sakini, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Cəlil Məmmədquluzadənin Nehrəm kəndindəki Xatirə Muzeyinin direktoru Akif Hacıyev tərəfindən muxtar respublikanın muzeylərində sərgilənməsi üçün təhvil verilir. Muzey eksponatlarının toplanması, muzeylərə təhvil verilməsi aksiyasına ilk dəfə qoşulan və əsl



vətənpərvərlik nümunəsi göstərən Akif Hacıyev bu gün daha 89 sayda yeni eksponatı muxtar respublikanın muzeylərinə təqdim edir.

Akif Hacıyev çıxışında hər kəsi bu təşəbbüsə qoşulmağa çağırıb və bildirib ki, bundan sonra da tariximizin yaşadılmasına xidmət mərasimini davam etdirəcək.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov muzeyə hədiyyə olunan eksponatlar üçün minnətdarlığını bildirib.

Sonda muzeyə təqdim edilən eksponatlara baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Magistraturaya qəbul imtahanı keçirilib



*Fevralın 23-də Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanı keçirib.*

Qəbul imtahanı respublikanın 5 – Bakı, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəran şəhərlərində, ümumilikdə, 49 imtahan binasında aparılıb. İmtahan hər yerdə eyni vaxtda, saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.

Qeyd edək ki, iştirak üçün 15 min 738 bakalavr ərizə təqdim edib. Onlardan 14 min 434-ü Azərbaycan, 1304-ü isə rus bölməsi üzrə imtahan verib. Ərizə verənlərin 7139-u oğlan, 8599-u isə qızdır. İmtahanın idarə olunmasına 154 imtahan rəhbəri, 1580 nəzarətçi-müəllim, 251 buraxılış rejimi əməkdaşı cəlb olunub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, bakalavrların öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Naxçıvan şəhərində imtahan 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilib. Bunun üçün 43 zal hazırlanıb, imtahana 58 nəzarətçi və 5 imtahan rəhbəri cəlb olunub. İmtahanda 488 bakalavr iştirak edib. Qaydalara görə, bakalavrlara 50-si məntiqi təfəkkür, 25-i xarici dil, 25-i isə informatika olmaqla, 100 sual təqdim edilib.

İmtahan nəticələrinin yaxın 2-3 gün ərzində elan edilməsi nəzərdə tutulur.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Türkiyəli alpinistlər Haçadağa yürüş ediblər

Fevralın 22-də Türkiyə Cümhuriyyətinin "Araz Təbiət İdman və Mədəniyyət Klubu" rəhbərliyi və üzvlərindən ibarət 37 nəfərlik alpinist qrupu Xocalı soyqırımı qurbanlarının xatirəsini anmaq üçün Naxçıvana gəlib. Fevral ayının 23-də Xocalı faciəsi qurbanlarının anım günü ilə əlaqədar onların Culfa rayonunun ərazisindəki hündürlüyü 2 min 415 metr olan Haçadağa yürüşü təşkil edilib. Yürüş Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə həyata keçirilib. Həmin federasiyasının idmançıları da yürüşə qatılıblar.



Yarışa Culfa rayonunun Gal kəndindən başlanılıb. Dağın zirvəsinə çatan yürüş iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edib, posterlər açıb, sonra iki ölkənin dövlət bayraqlarını dalğalandırıblar.

Yürüşdən sonra Hava və Ekstremal İdman Növləri Federasiyasının sədri Mais Əliyev və iştirakçılar arasında görüş keçirilib. Görüş zamanı qrup rəhbərlərinə federasiyanın plaketləri verilib.

**Ceyhun MƏMMƏDOV**

*İtmişdir*
Şahbuz Rayon Vergilər Şöbəsi tərəfindən Ziyarət Zakir oğlu Həsənzadənin adına verilmiş 0800119352 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 190